*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 50-54*
https://doi.org/10.62837/2024.5.50

**AYDAN QABIL QIZI ABDULLAYEVA**

**a.abdullayeva1992@gmail.com**
**ADU**

# İNGİLİS DİLİNDƏ İNTONASİYANIN FUNKSİYALARININ DANIŞIQ AKTINDA ROLU

**Açar sözlər: intonasiya, melodiya, cümlə vurğusu, tembr,sintaktik**
**Keywords : intonation, melody, sentence stress, tamber, syntactic**
**Ключевые слова: интонация, мелодия, фразовое ударение, тембр, синтактический**

Məlumdur ki, dilləri bir-birindən fərqləndirən əlamətlərdən biri də onların ritmik-melodik və intonasiya xüsusiyyətləridir. İntonasiya melodiya, cümlə vurğusu, nitqin tempi, səsin tembri və ritmin əlqəli dəyişməsinin mürəkkəb birliyidir. İntonasiyanın əsas komponentləri melodiya və cümlə vurğusu kimi qeyd edilir. Səs diapazonu, tonal səviyyələr, nüvə tonlarının enmə və qalxma səviyyələri,ritmin növlərindəki fərqlər dilin ritmik-melodik strukturuna, tələffüz ahənginə danışıq ritminə, müxtəlif modal-emosional münasibətlərin ifadə edilməsinə təsir edir. R.Kinqdona görə,əgər dilin fonemlər sistemi sözlərin,cümlələrin quru “skletini” təşkil edirsə, intonasiya onun “canını”, “ruhunu” təşkil edir.Bununla belə,intonasiya sərbəst vahid kimi sintaktik və leksik materialdan təcrid edilmiş şəkildə çıxış edə bilmir.Onun fəaliyyət dairəsi cümlənin fəaliyyəti ilə üzvi surətdə bağlıdır.İntonasiya aktiv bir faktor kimi cümlələrin daxili məzmununa ciddi təsir göstərir və eyni leksik tərkibli və qrammatik quruluşlu cümlələrin müxtəlif məna variantlarını yaradır. Odur ki, sintaktik struktur intonasiyasız, informasiya isə sintaktik struktursuz ola bilməz.İntonasiyanın sintaktik təhlildə rolu xüsusilə əvəz edilməzdir. İntonasiya cümlələri təşkil etməklə yanaşı,onların kommunikativ tipini müəyyənləşdirir, cümlələrin quruluşca növünü göstərir,cümlə daxilində əlavə elementlərin olduğunu üzə çıxarır,cümlələr və sintaqmlar arasında məna əlaqələrinin möhkəmliyini və zəifliyini qeyd edir,cümlələrdə sözlərə qabarıqlıq verir,qarşılaşdırma,modal-emosional münasibətlər ifadə edir (8,s.137). Məlum olduğu kimi, intonasiya linqvistik bir anlayış kimi dilçilikdə əsasən iki mənada-dar və geniş mənada izah edilir. İngilis dilçiləri, o cümlədən D.Counz, L.Armstronq, A.Uard ,K.Payk, R.Kinqdon və A.Qimson intonasiya anlayışını melodiya anlayışı ilə eyniləşdirirlər və onlar melodiya və cümlə vurğusunu bir-birindən ayıraraq onları ayrıca fonetik-fonoloji hadisə kimi izah edirlər. D.Counz intonasiyanı rabitəli nitqdə səs tonunun dəyişiməsi kimi izah edir ( 5,s.96). L.Armstronq və A.Uard da praktiki olaraq eyni fikri ifadə edirlər. Bu alimlərə görə, intonasiya danışıq zamanı səs tonunun qalxması və enməsidir.R.Kinqdon özünün “The Groundwork of English İntonation” kitabında intonasiyanı səs tonunun aramsız şəkildə qalxması və düşməsi kimi izah edir(1 ,s. 19 ). K.Payk intonasiyanı səs tonunun dəyişimlərinə ekvivalent kimi izah edir. K.Payka görə,danışıq zamanı hər cümləyə,hər sözə,hər hecaya bir qədər səs tonu verilir.Onun

fikrincə, səs tonsuz cümlə yoxdur. A.Qimson da intonasiyanın səs tonunun dəyişimləri,yəni səs tonun səviyəssində qalxmalar və enmələr kimi şərh edir(2,s.53).O,belə bir faktı xüsusi vurğulayır ki,söyləmdə müxtəlif dərəcəli vurğu,intonasiya vasitəsilə siqnal edilə bilər. Fikrin düzgün çatdırılmasında nüvə tonları ilə yanaşı,intonasiyanın digər struktur elementləri də xüsusi rol oynayırlar.İntonasiyanın təşkiledici, kommunikativ, sintaktik, qrammatik, aksent, modal və ya münasibət və diskurs kimi funksiyaları vardır.İntonasiyanın təşkiledici funksiyası sözləri,cümlələri və mətnləri təşkil etməkdən ibarətdir.İntonasiyanın kommunikativ funksiyası nitq axınında söz və söz birləşmələrini kommunikativ vahidlərə çevirir.Ünsiyyət prosesində danışanlar arsında əlaqə yaratmaq,həmin əlaqənin davam etdirilməsini,əsas fikrin nəzərə çatdırılmasına xidmət etməkdən ibarətdir( 3,s.69).

Rus dilçilərindən Q.Torsuyev intonasiyanın kommunikativ funksiyasına görə cümlənin kommunikativ tiplərinin nəqli,sual,əmr və nida cümlələr olduğunu qeyd edir.Bu alimin fikrinə görə nəqli cümlələr qətilik ifadə edərkən alçaq enən tonla,qeyri-qətilik ifadə edərkən isə alçaq qalxan tonla tələffz olunurlar.Məsələn, He has 'got a ˎbook. You are 'sure of 'going ,there.

Q.Torsuyevin fikrincə, sual cümlələri də fikir bitkinliyi olmadığına görə söz sırasının pozulması və həmçinin, söz sırasının dəyişməməsi ilə tələffüz oluna bilər( 4,s.78).Məsələn,

'Are you ,ready. 'Was it ,cold

You are ’ready İt was ’ cold

Bununla yanaşı,sual cümlələrinin digər növləri isə xüsusi,ayırıcı,seçmə və s göstərmək olar.İntonasiyanın sintaktik funksiyası vasitəsi ilə intonasiya deyilən ifadənin sadə, sadə geniş,tabeli və ya tabesiz mürəkkəb cümlə olduğu müəyyən edilir. Bundan əlavə ,intonasiyanın sintaktik funksiyaı cümlədə olan həmcins üzvlərin, xitabların, əlavələrin, müəllif sözlərinin olmasını müəyyən edir.Bu funksiya barədə P.Rouç,H.Palmer və digər dilçilər öz əsərlərində qeyd etmişlər.Şubiger M. qeyd edir ki, qalxan tonla deyilən cümlələr tabeli, enən tonla deyilən cümlələr isə tabesiz mürəkkəb cümlələrə aid etmək olar.Rouç P. Intonasiyanın qrammatik funksiyasından danışarkən qeyd edir ki,ton vahidinin yeri dinləyiciyə cümlənin qrammatik quruluşunu göstərə bilər.Məsələn,

The 'Conservatives who 'like the 'proposal /are ˎpleased.

The 'Conservatives / who 'like the ,proposal /are ˎpleased.

Bu cümlənin müxtəlif sintaqmatik bölgüsü ayrı-ayrı fikirləri izah etmiş olur.Birinci cümlənin sintaqmatik bölgüsünə görə, bəzi mühafizəkarların təkliflə razılaşmasından məmnun qalmaları ,ikinci sintaqmatik bölgüyə görə isə mühafizəkarların təkliflə razılaşmaları anlaşılır.Qeyd etmək lazımdır ki, intonasiya dinləyicidə müəyyən müsbət və mənfi emosiyaların ifadə edilməsində,müəyyən situasiyada onların fikrini ifadə etməsində köməkçi rol oynayır.İnsana məxsus emosiya və münasibətlər danışıq aktında dinləyiciyə intonasiya vasitəsilə çatdırılır.Məsələn,

'Must we 'do as he ,says (maraq)

’Must we do as he says ( narazılıq)

İngilis dilində mövcud olan on beş intonaiya modelləri müxtəlif emosiya və münasibətləri ifadə etməyə xidmət edir.Alçaq enən tonla ifadə edilən modellər daha çox fikir bitkinliyi, sakitlik ,təmkinlilik,ciddilik və neytral münasibət ifadə edir(6,s.107) .Məsələn, Are you a student,-ˎYes

Qalxan tonlu cümlələr isə qeyri-qətilik, fikir bitkinliyi olmayan,şübhə ifadə edir.Əmr cümlələri alçaq qalxan tonla tələffüz edildikdə,xəbərdarlıq,sakitləşdirmə ifadə edir.Məsələn, ˏStart, ˏSilent və sair.

Cümlələr kommunikativ tiplərə görə,nəqli, sual, əmr və nida cümlələrinə bölünür.Ümumi qaydada , onlar ifadə etdiyi fikir və münasibətlərə görə , bir qaydaya tabe olmurlar,müxtəlif tonlarla deyilməklə, müxtəlif münasibətlər ifadə edirlər.Buna görə , eyni qrammatik formaya malik olan bir cümlə,fərqli tonlarla müxtəlf münasibətlər ifadə edə bilir.Məsələn, 'Do you 'know ˏJack. ˏYes. ˎYes. Alçaq enən tonla deyildikdə,fikir bitkinliyi ifadə etdiyi halda, bu ifadənin alçaq qalxan tonla deyilməsi söhbətin davam etməsinə zəmin yaradır.

İngilis dilində intonasiyanın funksiyalarından biri kimi, diskurs danışanın danışıq aktı zamanı dinləyiciyə verilən informasiyanın yeni və ya artıq məlum informasiya olduğunu siqnal edə bilir.Bu məlumatların yeni və artıq paylaşılmış olduğunun dinləyiciyə çatdırılmasında nüvə tonlarının xüsusi əhəmiyyət daşıdığını qeyd etmək lazımdır.İntonasiyanın diskurs funksiyasını izah etməyə çalışan dilçilərin fikrincə, qalxan və enən-qalxan tonlu informasiya məlum və ya artıq paylaşılmış, enən tonla tələffüz edilən məlumat isə yeni sayılır.Məsələn,

What is on today?-we are 'going to the ˎraces

Diskursun özünəməxsus strukturu vardır;Söhbətin başlanğıcı,söhbətin davamı, söhbətin qurtarması.

İntonasiyanın modal və ya münasibət funksiyası vasitəsilə, danışıq dilinə xüsusi növ məna verilməsinə imkan verilir.Məsələn,

Harry is not coming to tea-'Who is 'coming to ˎtea then.

Verilən cavabda danışan səbirsizlik ifadə edir.

İntonasiyanın funksiyalarından biri də aksent funksiya adlanır. Bu funksiya vasitəsilə intonasiya hecalarda qabarıqlıq təsirini yaratmağa,beləliklə həmin hecaların vurğulu heca kimi qavranılmasına kömək edir.İntonasiya tonik vurğunun müəyyən hecalarda yerləşdirməklə intonasiya qrupunda əhəmiyyət daşıyan sözü qeyd edir.Bu funksiya intonasiyanın aksent funksiyası adlanır.İngilis dilində tonik hecanın ən ümumi yeri sonuncu leksik-semantik vahid üzərinə düşməsidir.Məsələn,

aİ have 'plans to ˎleave = I am planning to leave

İ have ˎplans to leave = İ have to leave plans

Verilən cümlələrdə tonik vurğunun fərqli sözlərdə olması ,müxtəlif fikirlərin ifadə edilməsinə səbəb olur.Ümumi qaydara əsasən,tonik vurğu adətən cümlədə axırıncı əhəmiyyət daşıyan sözdə olur. Lakin qarşılaşma məqsədilə tonik vurğu istənilən sözdə ola bilər.Dilçilərin səsləndirdiyi fikrə görə, tonik vurğu ilə deyilən heca informasiyanın mərkəzi kimi göstərilir.Məsələn,

'John 'likes `fish (he dislikes meat)

'John `likes fish ( he dislikes meat or poultry)

`John likes fish ( not Tom but John)

Aparılan araşdırmalardan belə bir nəticəyə gəlmək olur ki, intonasiyanın struktur elementlərinin hər biri danışıq aktında müəyyən funksiya yerinə yetirirlər.

**İstifadə olunmuş ədəbiyyat**

1. Kingdon R. The Groundwork of English Intonation. London, 1958.
2. Gimson A.C. An İntroduction to the pronunciation of English. London, 1970.
3. Crystal D. Prosodic systems and İntonation in English. Cambridge, 1969.
4. Торсуев И.Г. Интонация как компонент текста. Всб: Фонология, фонетика, интонология. М.,1979.
5. Jones D. An Outline of English phonetics. Cambridge, 1937.
6. Vassilyev V.A. English phonetics (a theoretical course) M., 1970.
7. Dickushina O. English phonetics M., 1965.
8. Babayev S., Qarayeva M. English phonetics. Bakı, 1999.

**AYDAN ABDULLAYEVA**

**Xülasə**

**İngilis dilində intonasiyanın funksiyalarının danışıq aktında rolu**

Bu məqalədə intonasiyanın danışıq aktındakı rolundan bəhs edilir. İlk öncə, intonasiya və onun komponentləri-melodiya,cümlə vurğusu,nitqin tempi,səsin tembri və ritm haqqında məlumat verilir.Bu komponentlərdən ən çox əhəmiyyət daşıyan melodiya və cümlə vurğusu araşdırılır.İntonasiyanın komponentləri barədə xarici dilçilərin fikirləri qeyd edilir.İntonasiyanın təşkiledicilik, kommunikativ, sintaktik, qrammatik, aksentual, modal və ya münasibət və diskurs funksiyalarının əsas xüsusiyyətləri,onların danışıq aktındaki rolu ayri-ayrılıqda qeyd edilir,Bu funksiyaların yerinə yetirilməsində müxtəlif nüvə tonlarının istifadə qaydalarına münasibət bildirilir. Səs diapazonu, tonal səviyyələr, nüvə tonlarının enmə və qalxma səviyyələri, ritmin növlərindəki fərqlər dilin ritmik-melodik strukturuna, tələffüz ahənginə danışıq ritminə, müxtəlif modal-emosional münasibətlərin ifadə edilməsinə təsir etməsi barədə fikir söylənilir.İntonasiyanın struktur elemenləri olan taktönü, şkala, nüvə və taktardının müəyyən fikri çatdırmaqda istifadə qaydaları da məqalədə əks etdirilir.

**AYDAN ABDULLAYEVA**

**SUMMARY**

**THE ROLE OF FUNCTIONS OF INTONATION IN CONNECTED SPEECH IN ENGLISH**

This article discusses the role of intonation in connected speech. First of all, information is given about intonation and its components - melody, sentence stress,

speech tempo, voice timber and rhythm. The most important of these components are the melody and sentence stress. The opinions of foreign linguists about the components of intonation are noted. The main characteristics of constitutive, communicative, syntactical, grammatical, accentual, modal or attitudinal and discourse functions, their role in connected speech are mentioned separately, the attitude to the rules of using different nuclear tones in the performance of these functions is stated. Voice range, tonal levels, falling and rising levels of nuclear tones, differences in the types of rhythm affect the rhythmic-melodic structure of the language, pronunciation tone, speech rhythm, expression of various modal-emotional relationships. The rules of using structural elements of intonation, such as pre-head, head, the nucleus and the tail to convey a certain idea are also reflected in the article.

**АЙДАН АБДУЛЛАЕВА**

**РЕЗЮМЕ**

**РОЛЬ ФУНКЦИЙ ИНТОНАЦИИ В РЕЧЕВОМ АКТЕ В АНГЛИЙСКОМ ЯЗЫКЕ.**

В данной статье рассматривается роль интонации в речевом акте. Прежде всего даются сведения об интонации и ее компонентах - мелодии, фразовом ударение , темпе речи, тембра голоса и ритме. Важнейшими из этих компонентов являются мелодия и фразовое ударение . В статье даются мнения зарубежных лингвистов о компонентах интонации. Также отмечаются основные характеристики синтаксических, грамматических, акцентуальных, модальных или отношенческих и дискурсивных функций, отдельно упоминается их роль в речевом акте, излагается отношение к правилам употребления разных ядерных тонов при выполнении этих функций. Даются точки зрения о голосовом диапазоне, тональных уровнях, понижение и повышение уровней ядерных тонов, различия типов ритма влияющие на ритмико-мелодическую структуру языка, гармонию произношения, ритм речи, выражению различных модально-эмоциональных отношений. В статье также отражаются правила передачи определенных мыслей интонационных структур как предтакт, шкала, ядерный тон и затакт.

**Rəyçi:** **dos, f.f.d.Alırzayeva K.A**